# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİ DÜNYA VƏ UNİVERSİTET KİTABXANALARINDA

**Nurlana Əliyeva**

*BDU, Kitabxanaşünaslıq kafedrasının doktorantı*

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi şəxsiyyətlər var. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim mədəniyyət və incəsənətin inkişafına böyük qayğı göstərmişdir. Azərbaycan mədəniyyətinin inkişafına və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan Heydər Əliyev Azərbaycanda kitabxana işinin inkişafına da böyük diqqət ayırmışdır. Müdrik rəhbərin ölkəmizə rəhbərlik etdiyi dövrdə bir sıra şəhər və rayonlarda kitabxana şəbəkəsinin sürətli inkişafı, kitabxanaçı kadrların hazırlanması, kitabxanaların maddi-texniki bazasının yaradılması sahəsində böyük işlər görülmüşdür.

1998-ci ildə Azərbaycan kitabxanalarının tarixində dönüş mərhələsi hesab olunan "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu Qanuna uyğun olaraq 2000-ci ilin mayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Milli Kitabxanasının Əsasnaməsinin təsdiq olunması barədə" qərar qəbul etdi. 2005-ci ildə M.F.Axundov adına Dövlət Kitabxanasına "Milli Kitabxana" statusu verilmişdir. Ulu Öndər Heydər Əliyev 1995-1997-ci illərdə 4 dəfə Milli Kitabxanaya gəlmiş və kitabxananın fondunun zənginləşməsində bir sıra tədbirlərin görülməsi üçün tapşırıqlar vermişdir.

Milli Kitabxananın əməkdaşları Ulu Öndərin xatirəsini əbədiləşdirmək məqsədilə daim xüsusi tədbirlər həyata keçirir. "Heydər Əliyev irsi" adlı geniş elektron-məlumat bazasının yaradılması və onun kitabxananın saytı vasitəsilə bütün dünyaya yayımlanması təqdirəlayiq işlərdən biridir. Eyni zamanda Milli Kitabxana 2018-ci ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Heydər Əliyev. Biblioqrafiya" kitabını da ərsəyə gətirmişdir. Biblioqrafiya Ulu Öndərin zəngin irsinin gələcək nəsillərə çatdırılması baxımından çox dəyərli mənbədir. Fundamental biblioqrafiyada Ulu Öndərin öz əsərləri və onun haqqında yazılmış materiallar yer alıb. Biblioqrafiya görkəmli siyasi xadimin 1969-2018-ci illərdə Azərbaycan, rus, ingilis, türk və digər xarici dillərdə nəşr

olunmuş kitabları, elmi konqres, sessiya, konfrans materiallarında və elmi məcmuələrdə dərc edilmiş elmi-siyasi məqalələri, çıxışları və haqqında yazılmış materialları əhatə edir.

"Heydər Əliyev dünya kitabxanalarında" adlı bölmədə dünyanın bir sıra nüfuzlu kitabxanalarında Ulu Öndər haqqında Azərbaycan, rus və digər xarici dillərdə nəşrlər öz əksini tapıb. Axtarış nəticəsində ABŞ Konqres Kitabxanasının elektron kataloqunda 1966-2013-cü illəri əhatə edən 40 adda Azərbaycan, rus, ingilis, türk və digər dillərdə nəşrlər elektron kataloqa salınıb.

Türkiyə Milli Kitabxanasında 1994-2014-cü illəri əhatə edən 11 adda nəşrlər elektron kataloqa salınıb. Argentina Milli Kitabxanasında 2, Avstriya 1, Belçika 1, Bolqarıstan 3, Estoniya 12, Finlandiya 1, Gürcüstan 4, Latviya 2, Litva 7, Bavariya 2, Makedoniya 1, Moldova 3, Polşa 2, Rumın 1, Ukrayna 4, Böyük Britaniya 11, Almaniya 2, Kanada Milli Kitabxanası və Arxivində 1, Çin 1, Çexiya 8, Fransa 3, Macarıstan 1, Yaponiya 5, Koreya 1, Hollandiya 1, Şotlandiya 6, Serbiya 1, İsveç 1, Rusiya Dövlət 60, Rusiya Milli 22, Belarus 54, Danimarka Kral Kitabxanasında 9 adda nəşrlər elektron kataloqda öz əksini tapıb. Sorbon Universitetinin Kitabxanasında 11 adda nəşrlər elektron kataloqa salınıb.

Dahi şəxsiyyət Heydər Əliyevin mədəniyyət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə mədəniyyətin müxtəlif sahələri – teatr, kino, kitabxana və muzey işinin inkişafı ilə bağlı qəbul olunan Dövlət Proqramları ölkəmizdə mədəniyyətin tərəqqisinə yeni stimul yaratmışdır.